# Göy Qurşağı Vəkilliyi Proqramı

## 2022-2023



NƏFƏS LGBTI
AZƏRBAYCAN ALYANSI

GÖY QURŞAĞI VƏKİLLİYİ



# Artan Görünürlük

Son illər ərzində kuir fəalların və kollektivlərin, müxtəlif vətəndaş cəmiyyəti qruplarının, jurnalistlərin cəsarətli və yorulmaz işləri sayəsində Azərbaycanda LGBTİ+ insan hüquqlarının vəziyyəti yerli və beynəlxalq səviyyədə əhəmiyyətli fərqindəlik qazanmışdır.

Bu istiqamətdə mövcud boşluqların doldurulmasına töfvə vermək üçün Nəfəs LGBTİ 6 aylıq “Göy Qurşağı Vəkilliyi” Proqramını təqdim edir.

Program icma ilə iş təcrübəmiz, o cümlədən, bənzər proqramlar, masaüstü tədqiqat və ekspertlərlə məsləhətlər əsasında tərtib edilib.




# Məqsəd!

Proqramın əsas məqsədi yeni yaranan LGBTİ+ təşəbbüs qrupları və fəallarının, LGBTİ+ vəkilliyi bacarıqlarını gücləndirmək, o cümlədən, onların ictimai iştirakçılığını dəstəkləməkdir.

# İŞTİRAK ÜÇÜN TƏLƏBLƏR



- **LGBTI+ aktivizmində maraqlı olan;**
- **LGBTİ+ vəkillik təcrübəsi ilə maraqlanan;**
- **Və 6 ay müddətində proqramda iştirak etməyə hazır olan**

**HƏR KƏS “Göy Qurşağı Vəkilliyi” Proqramına müraciət edə bilər!**

---

**İştirakçı seçimində üstünlük təmsilçiliyi az görünən (xüsusən də trans və interrsekslərə) və regionlardan olan LGBTİ+lərə veriləcək. Lakin proqram icmadan olan hərkəsə açıqdır!**

***Bununla yanaşı, proqramda iştirak etmək üçün aşağıdakı tələblər də mövcuddur:***

Proqram müddətində aktiv şəkildə iştirak etmək
o cümlədən;

- Regionlardan birində keçiriləcək 2 günlük təlimdə iştirak etmək;
- Proqram müddətində Bakıda keçiriləcək 4 təlimdə iştirak etmək;
- LOTS vəkillik təşəbbüsü təklifi etmək;
- LOTS vəkillik təşəbbüsü həyata keçirmək və hesabatını təqdim etmək.



Proqramı uğurla bitirən məzunlar sertifikatla qiymətləndirilmək ilə yanaşı, Nəfəsin Məzunlar Proqramına üzv olacaqlar.




# LOTS (Learning On The Spot) Vəkilik Təşəbbüsləri Nədir?

**Seçilmiş iştirakçılar 2 günlük intensiv təlim zamanı əldə etdikləri bacarıqları tətbiq etmək və həqiqi təcrübə qazanmaları üçün LOTS vəkillik təşəbbüsü həyata keçirtmək imkanı əldə edəcəklər. Layihələrin icra müddəti 3 aydan artıq olmamalıdır.**

- **Təlim**
- **Seminar**
- **İctimai müzakirə**
- **Sorğu**
- **Podkast**
- **Qısa-metrajlı film**
- **Sosyal kampaniya**

**VASİTƏLƏR SONSUZDUR**



# Tentativ Təqvim

1. Seçim prossesi (16 noyabr - 2 dekabr 2022)

2. İctimai iştirakçılığın artırılması və vəkillik kampaniyalarının təşkili mövzusunda 2 günlük intensiv təlim (9 - 11 dekabr, 2022)

3. LGBTİ+ vəkillik lahiyələrinin icrası (yavar, fevral və mart, 2023)

4. Layihələrin tamamlanması və hesabatın verilməsi (aprel, 2023)

5. Proqramın tamamlanması və nəticələrin təqdimatı (may, 2023)

# Seçim prosesi



- Proqramda iştirak etmək istəyənlər 28 noyabr saat 12:00-dan gec olmayaraq onlayn formada müraciət edə biləcəklər.



- Seçilmiş ərizəçilər şifahi müsahibəyə cəlb olunacaq və uğurlu ərizəçilər dekabrın 2-dən gec olmayaraq yekun seçim barədə məlumatlandırılacaqlar.



- Seçim mərhələsi onlayn müraciət formasının doldurulma keyfiyyətinə əsaslanacaq.



# Xərclər

Proqramda iştirak ödənişsizdir

# Necə müraciət etməli?



Qeydiyyat formasını əldə etmək üçün
rainbowadvocacy@nafaslgbti.org
elektron ünvanına yaza bilərsiz.

Broşurda istifadə olunan şəkillərin müəllif hüquqları
Minority Azərbaycana məxsusdur.